UOT 94(479.24)
DOI: https://doi.org/10.30546/3006-0346.2025.2.86.246

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLƏ DAĞISTAN ARASINDA DEMARKASİYA XƏTTİNİN MÜƏYYƏN OLUNMASI VƏ BU MƏSƏLƏDƏ BÖYÜK BRİTANİYANIN MÖVQEYİ

**LEYLA HƏSƏNOVA**
*AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Beynəlxalq münasibətlər tarixi ixtisası üzrə doktorantı*

*E-mail: ley.hasan@gmail.com*
*ORCID: https://orcid.org/0009-0008-3605-4533*

## Giriş

1919-cu ilin əvvəllərində "Könüllü ordu" Dağlı Respublikanın qərb ərazilərinə hücum etdi və fevralın əvvəllərində İnquşetiyada Denikinin hakimiyyəti bərqərar oldu. Terek-Dağıstan diyarının tərkibində olan İnquşetiyanın idarəçiliyi, o cümlədən ümumiyyətlə diyarın idarəçiliyi general – leytenant V.P.Lyaxova həvalə edilmişdi .

1919-cu il martın əvvəllərində "Könüllü ordu" Çeçenistana soxuldu və Çeçenistanın düzəngah əraziləri ələ keçirildi.Denikinin ələ keçirdiyi çeçen ərazilərinin idarəçiliyi general İrisxan Əliyevə həvalə edildi. 1919-cu ilin yayında Terek-Dağıstan diyarının Baş rəisi əvvəllər, Denikinin Bakıda nümayəndəsi olmuş İvan Erdeli təyin edildi. Dağlı xalqları "Könüllü ordu"ya qarşı mübarizəyə qalxdılar.

Dağlı respublikasının Denikin orduları tərəfindən işğalından sonra gündəmdə olan ən aktual məsələlərdən biri AXC ilə Dağıstan arasında demarkasiya xəttinin müəyyən olunması idi.

## 1.Birinci demarkasiya xəttinin qəbulu və Denikin qüvvələrinin özbaşınalığı

1919-cu il iyunun 11-də Cənubi Qafqazdakı Britaniya qüvvələrinin komandanı general-mayor Q.N.Kori Azərbaycan hökumətinin Nazirlər Şurasının sədri N.Usubbəyova məlumat göndərdi. Məlumatda çox vacib bir məsələ - Şimali Qafqazda "Könüllü Ordu"nun ələ keçirdiyi ərazilərlə Qafqaz Respublikaları arasında demarkasiya xəttinin təsdiq olunmasından bəhs olunurdu [13, s.226]. Sənəddə göstərilirdi ki, general Denikinlə Qafqaz ştatları arasında demarkasiya xətti aşağıdakı qaydada təsdiq edilir: Bzıb çayının mənsəbindən bu çay üzrə şimala, Suxum sərhəddinədək; oradan Suxumi, Kutaisi, Tiflis və Dağıstan vilayətləri üzrə şərqə Petrovsk-Dağıstan dəmir yolundan 5 mil cənubda yerləşən nöqtəyədək, oradan paralel olaraq cənubi-şərqə, Petrovskdan 5 mil cənuba, Xəzər dənizi sahilindəki nöqtəyədək. General Denikinə tapşırılmışdır ki, öz qoşunlarının bu xəttdən cənuba keçməsinə imkan verməsin. Qafqaz dövlətləri də öz növbəsində bu xətdən şimala keçməməli idilər. General Korinin məlumatında, həmçinin bildirilirdi ki, Qafqaz dövlətləri bolşevik qüvvələrini təmin etməkdən çəkinməlidirlər. Bu şərtlərə əməl olunmaması halında Böyük Britaniya hökuməti general Denikinin qoşunlarının bu xətdən şimalda qalmasını təkid etmək imkanlarından məhrum olacaqdır [13, s.226]. Yəni, general Kori Cənubi Qafqaz Respublikalarını Denikinlə təhdid edirdi.

Lakin Denikin özü Böyük Britaniya hökumətinin cızdığı bu demarkasiya xəttini qəbul etmədi və 1919-cu ilin iyunun ortalarınadək Denikin qoşunları Dərbəndə qədər əraziləri ələ keçirdi.

Yaranmış vəziyyətlə bağlı AXC-nin öz planları var idi: AXC demarkasiya xəttindən cənubda qalan əraziləri öz nəzarətinə götürmək istəyirdi. Bununla əlaqədar, 1919-cu ilin iyunun 16-da Azərbaycan xarici işlər nazirinin müavini Adilxan Ziyadxanov Azərbaycanın Dağlı Respublikasındakı diplomatik nümayəndəsi Ə.Haqverdiyevə Azərbaycanın diplomatik və hərbi sahədə uğurlarının təbliğ edilməsinin zəruriliyi və Dağlı Respublikasının demarkasiya xəttindən cənubda qalan ərazisinə müvəqqəti olaraq Azərbaycan qoşunlarının yerləşdirilməsi haqqında danışıqların aparılması barədə direktiv göndərdi [2,v.57]. Direktivdə göstərilirdi ki, diplomatik və hərbi tədbirlər nəticəsində Azərbaycan hökumətinin qazandığı uğurlar haqqında Dağıstan əhalisini geniş şəkildə məlumatlandırmaq lazımdır. Denikin Dərbəndi tərk etməli və demarkasiya xətti arxasına, yəni şimala çəkilməlidir. Dağlı Respublikasının yenidən bərpası ideyasının tərəfdarı kimi, Azərbaycan hökuməti "Könüllü Ordu"nun şimala çəkilməsindən sonra müvəqqəti olaraq Dağıstanı nəzarətə almağı düşünür [2, v.57].

Azərbaycanın Dağlı Respublikasındakı diplomatik nümayəndəsi Ə. Haqverdiyevin fəallaşması fonunda 1919-cu il iyulun 2-də general Erdeli ondan Dağıstanı tərk etməyi tələb etdi. Bununla bağlı 1919-cu il 3 iyulda Azərbaycanın xarici işlər naziri

M.Cəfərov Bakıdakı Müttəfiq qoşunlarının komandanı general D.Ştalvorqa etiraz notası təqdim etdi [7, v.58]. Etiraz notasında deyilirdi ki, 1919-cu il iyunun 11 - də general Korinin göndərdiyi bildirişdə "Könüllü Ordu" ilə Cənubi Qafqaz Respublikaları arasında Britaniya hökumətinin təyin etdiyi demarkasiya xətti göstərilmişdir. Demarkasiya xəttinə görə Dərbənd Denikinin hakimiyyətində olan ərazilərdən kənarda qalır və müvafiq olaraq bu qərara əsasən Denikin işğal etdiyi Dərbənddən qoşunlarını demarkasiya xəttindən şimala çəkməlidir. Azərbaycan hökuməti yaranmış bu situasiya ilə bağlı Britaniya komandanlığına müraciət edirdi ki, qoy o, Könüllü Ordu rəhbərliyini Britaniya hökumətinin qərarlarına və Azərbaycan hökumətinin hüquqlarına hörmətlə yanaşmağa məcbur etsin [7, v.58].

Bakıda qərarlaşan müttəfiq qoşunlarının komandanı D.Şatelvorq Azərbaycan Nazirlər Şurasının sədri N.Usubbəyova cavabında yazırdı ki, "Könüllü ordu" komandanlığından demarkasiya xətti ilə bağlı sənədin surətini almışdır və Denikinin ələ keçirdiyi ərazilərin cənub hüdudları ilə Britaniya hökumətinin təyin etdiyi cənub demarkasiya xətti üst-üstə düşmür və bu haqda Britaniya hökumətinə xəbər verilmişdir [11, v.15].

"Könüllü Ordu"nun nümayəndəsi general Baratovla Batumda görüşən Azərbaycan hökumətinin Müttəfiq Qoşunları komandanlığında nümayəndəsi A.Tahirov ondan soruşanda ki, niyə "Könüllü Ordu" Dağıstandan çıxaraq öz xətinə çəkilmir. Baratov belə cavab vermişdir ki, guya "Dərbənddə depo və dəmiryolu emalatxanaları var ki, onlarsız Qroznıya qədər Vladiqafqaz dəmiryol xəttinə xidmət edilməsi mümkün deyil". O, tezliklə Bakıya gedəcəyini, bütün məsələləri Azərbaycanda müzakirə edəcəyini bildirmişdi. Onun sözlərinə görə, "Könüllü Ordunun" Azərbaycana qarşı heç bir kin-küdurəti yoxdur [4, v.103-105].

General N.N.Baratov 1919-cu il avqustun əvvəllərində Cənubi Rusiya silahlı qüvvələrinin Baş komandanlığının Cənubi Qafqazdakı Britaniya Baş komandanlığında nümayəndəsi təyin olundu və Baratov 1919-cu il avqustun 6-da öz diplomatik vəzifələrini yerinə yetirmək üçün Tiflisə gəldi. Elə həmin gün o, Azərbaycan hökumət başçısı N.Usubbəyova bildiriş göndərdi. Bildirişdə onun səlahiyyətində AXC, GDR və Ararat respublikası ilə hərbi, iqtisadi və siyasi məsələlər üzrə əlaqələr qurmaq olduğunu göstərirdi və bu məqsədlə tezliklə Bakı şəhərinə gələcəyi və hər iki tərəf üçün maraq doğuracaq məsələləri müzakirə etmək niyyətində olduğunu bildirmişdi [16, v.26].

**2.İkinci demarkasiya xəttinin qəbulu və AXC-nin etirazı**

1919-cu il avqustun 6-da Britaniya hökuməti "Könüllü Ordu" ilə Cənubi Qafqaz respublikaları arasında yeni demarkasiya xəttini təsdiq etdi və ikinci demarkasiyaya görə Dağıstan da Denikinə verildi. Britaniya hökumətinin bu qərarı Azərbaycan hökumətində ciddi narazılığa səbəb oldu. Bununla bağlı 1919-cu il avqustun 10-da Azərbaycan xarici işlər naziri M.Cəfərov Bakıdakı Müttəfiq qoşunlarının komandanı general D.Şatelvorqa nota təqdim etdi. Notada deyilirdi ki, hələ 1919-cu il iyunun 11-də Britaniya hökuməti tərəfindən "Könüllü Ordu ilə Cənubi Qafqaz respublikaları arasında demarkasiya xətti təsdiqlənmişdir. Bu xətt Azərbaycan tərəfini qane edirdi, çünki Cənubi Dağıstan Denikin qoşunlarının təsir dairəsindən kənarda qalırdı. Qərara əsasən Denikin qoşunlarını Dərbənddən və Cənubi Dağıstandan şimala çəkməli idi. Ancaq Azərbaycan tərəfinin gözləntilərinin əksinə olaraq, Britaniya hökuməti demarkasiya xəttini təzələdi və qəbul olunmuş yeni qərara əsasən artıq Dərbənd də daxil olmaqla bütün Dağıstan Denikinin sərəncamına keçdi. Bu qərar Azərbaycan hökuməti üçün gözlənilməz oldu [8, v.29].

Yeni demarkasiya xətti artıq Azərbaycanın dövlət maraqlarına təhlükə yaradırdı. Çünki, indi "Könüllü Ordu" Azərbaycanla sərhəddə qərarlaşırdı və müstəqil Azərbaycan üçün təhdid sayıla bilərdi. Bu cür vəziyyət Azərbaycan cəmiyyətində gərginlik yaratmışdı – hamı Denikin təhlükəsindən danışırdı. Xarici işlər nazirinin notasında göstərilirdi ki, hökumət yeni xəttin bərqərar olmasını özü üçün qəbul olunmaz sayır və köhnə xəttin bərpa olunmasını israrla tələb edir" [8, v.29].

1919-cu il avqustun 10-da Gürcüstan Respublikasının xarici işlər naziri Y.P.Geqeçkori Azərbaycanın xarici işlər naziri M.Cəfərova teleqram göndərdi. Teleqramda göstərilirdi ki, Gürcüstan da Dağıstanda yeni demarkasiya xəttinin tətbiqinə razı deyil və köhnə demarkasiya xəttinə əməl olunmasını tələb edir. Gürcüstan tərəfi Azərbaycana da bu işdə fəal olmağı tövsiyə edirdi. Dost və müttəfiq olan Gürcüstan tərəfi Azərbaycan tərəfini daha ayıq-sayıq olmağa çağırırdı. Çünki gürcü tərəfinin fikrincə, Denikin

və Azərbaycan arasında münasibətlərin mürəkkəb xarakter alma ehtimalı daha çoxdur. Xəzər donanmasının bölünməsi, yeni demarkasiya xətti və sair amillərlə bağlı "Könüllü ordu" ilə Bakı arasında münaqişəli münasibətlər var idi və gürcü tərəfinin də fikri bu amillərə əsaslanırdı. Hətta gürcü tərəfi müdafiəyə hazırlıq görməyi, bu məqsədlə Gəncədə hərbi bazanın yaradılmasını təklif edirdi [14, v.28].

1919-cu il avqustun 22-də müttəfiq qoşunları Azərbaycanı tərk etməyə başladılar [10]. Bu hadisə ilə bağlı Müttəfiq qoşunlarının komandanı general D.Şatelvorq Azərbaycan əhalisinə vida çıxışı ilə müraciət etdi. Müraciətin məzmunundan görünür ki, ingilis qoşunları Azərbaycanı bu ölkə haqqında, onun əhalisi haqqında xoş təəssüratlarla tərk edir.

1919-cu il sentyabrın 10-da Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin sədri Ə.Topçubaşov Böyük Britaniyanın xarici işlər naziri lord Balfura "Könüllü Ordu"nun Azərbaycana qarşı təcavüzkar hərəkətləri barədə nota təqdim etdi [6, v. 90-94]. Notada göstərilirdi ki, bir ilə yaxındır Bakıda ingilis komandanlığı ilə Azərbaycan hökuməti çox effektli əməkdaşlıq etmişlər. Hətta general Tomson 1918-ci ilin noyabrında Azərbaycana daxil olanda məlum proklamasiya ilə bəyan etmişdir ki, "Azərbaycan hüdudlarında Azərbaycan hökumətinin hakimiyyəti mövcuddur və Azərbaycan ərazisində yaşayan hər kəs bu hakimiyyətə tabe olmalıdır" [6, v. 90-94]. İngilis komandanlığı bu cür münasibətə görə xalq arasında böyük rəğbət qazanmışdı. İngilis komandanlığına ən çox minnətdarlıq Qarabağ məsələsinin həllində oynadığı xidmətlərə görədir. "Könüllü Ordu"nun Azərbaycana və Gürcüstana qarşı mümkün təcavüzünün qarşısını saxlayan amil də ingilis qoşunlarıdır.

Ə.Topçubaşovun notasında "Könüllü ordu"nun Dağlı Respublikasını işğal etməsi, bu hadisədən sonra İngiltərə hökuməti tərəfindən demarkasiya xəttinin təyin olunması, bu xəttə görə Dağıstanın Azərbaycanın tərkibinə daxil olması faktları sadalanır. Lakin demarkasiya xəttinin ikinci dəfə dəyişdirilməsi və Dağıstanın "Könüllü Ordu"nun ixtiyarına verilməsi Azərbaycan hökumət rəhbərlərini və əhalini təşvişə salmışdır. Bu narahatlıq hissi ingilis qoşunlarının Azərbaycanı tərk etməsi ilə daha da artmışdır. Çünki ingilislərin Cənubi Qafqazı tərk etməsi fonunda Denikin qoşunları tərəfindən həm quru yolla, həm də dəniz vasitəsilə Azərbaycana təcavüz və təhdid üçün şərait yaranmışdır.

"Könüllü Ordu"nun Dağıstanı və Dərbəndi tutması ingilislərin Cənubi Qafqazı tərk etməsi ərəfəsində baş vermişdir. Ancaq sənəddən görünür ki, Ə. Topçubaşovun özünün də yazdığı kimi, Parisdəki "nümayəndəliyin Bakıdakı hökumətlə əlaqələrinin kəskin çətinləşməsi üzündən" Britaniya hökumətinin demarkasiya xəttini dəyişməsi barədə qərarından məlumatı olmamışdır. Xəzər donanmasının bir hissəsini alan Denikin, indi də dənizdən Azərbaycan ərazilərinə, o cümlədən paytaxt Bakıya hücum edə bilərdi.

Ə.Topçubaşov Balfur qarşısında belə bir məsələ qaldırdı ki, Denikin Böyük Britaniya və Müttəfiq ölkələr tərəfindən siyasi, hərbi və maliyyə dəstəyi alır və necə olur ki, bolşevizmlə mübarizə məqsədilə verilən bu yardımları Denikin Qafqaz xalqlarına qarşı istifadə edir? Dağlı Respublikası, Kuban Xalq Respublikası, Azərbaycan Cümhuriyyəti də bolşevizmə qarşı mübarizə aparırlar. Denikin isə bolşevizmə qarşı mübarizə üçün ona verilən silahı Qafqazın gənc, azad respublikalarına qarşı çevirmişdir və məqsədi də "vahid və bölünməz Rusiyanın bərpa olunmasıdır" [6, v. 90-94].

Ə.Topçubaşov bildirirdi ki, Parisdəki Azərbaycan nümayəndə heyəti nə qədər cəhd etsə də, nə baş nazir Lloyd Corcla, nə də XİN Balfurla görüşə bilməmişdir. Bu səbəbdən də, o, "Könüllü Ordu" haqqında etirazını nota şəklində göndərməyə məcburdur. Ə.Topçubaşov ümid edirdi ki, "Könüllü Ordu"nun təhdidlərinə qarşı Azərbaycanın etiraz səsi eşidilcəkdir və Böyük Britaniya Azərbaycanın tərəfinə öz ədalətli səsini yüksəldəcəkdir [6, v. 90-94].

1919-cu il sentyabrın əvvəllərində Nazirlər Şurasının sədri N. Usubbəyovun Cənubi Rusiya Silahlı Qüvvələrinin Ali komandanının Cənubi Qafqazdakı Britaniya Baş Komandanlığındakı nümayəndəsi, general N.N. Baratovla görüşü oldu. Bir neçə gün sonra Rusiyada çıxan "Знамя труда" qəzeti Usubbəyovla Baratov arasında razılıq əldə olunması haqqında məlumat yaydı. Eser partiyasının Bakı Komitəsinin orqanı olan bu qəzet 1918-ci ilin yanvarından 1919-cu ilin noyabrınadək nəşr edilmişdir. Ancaq, N.Usubbəyov "Возрождение" qəzetinə verdiyi müsahibədə Baratovla heç bir razılığın əldə olunmadığını bəyan etdi [5, v.11-12]. N.Usubbəyovun müsahibəsindən görünür ki, Baratovla görüşdə Cənubi Rusiya Silahlı Qüvvələri ilə sülh bağlanması üçün AXC tərəfi şərt irəli sürmüşdür. Bu şərtin məzmunu ondan ibarət idi ki, AXC Gürcüstanın

iştirakı olmadan Denikinlə sülh bağlamaq niyyətində deyildi. Bundan savayı, Azərbaycan tələb edirdi ki, "Könüllü Ordu" Dağıstanı tərk etsin və Dağıstan Azərbaycanla Cənubi Rusiya Silahlı Qüvvələri arasında neytral zonaya çevrilsin. Bunun üçün isə Denikin qoşunlarının Dağıstanı tərk etməsi gərək idi. Bu dövrdə Azərbaycan qoşunları Samur çayı boyunca sərhəddə dayanmışdılar və Azərbaycan tərəfi Cənubi Rusiya Silahlı Qüvvələrindən mövcud status - kvonu tanımağı tələb edirdi. Bütün bu yuxarıda söylənilən şərtlər qəbul olunarsa, Azərbaycan Cənubi Rusiya Silahlı Qüvvələri ilə müqavilə bağlaya bilərdi və bu əməkdaşlıq əsasən, üç istiqamətdə düşünülürdü: 1) mal mübadiləsi üzrə ticarət müqaviləsinin bağlanması; 2) poçt və teleqraf haqqında konvensiyasının bağlanması və 3) birbaşa dəmiryolu əlaqəsinin yaradılması. N.Usubbəyovla görüşündə N.Baratov bəyan etmişdi ki, AXC Cənubi Rusiya Silahlı Qüvvələrinə hücum etməsə, Denikin hətta qoşunlarının Dağıstandan çıxarılmasına da razıdır.Ümumiyyətlə götürdükdə, Denikinlə bağlana biləcək müqavilənin şərtləri Azərbaycanı qane edirdi, ancaq Azərbaycan tərəfi bu cür müqavilənin öz müttəfiqi Gürcüstanın iştirakı olmadan bağlamağı arzulamırdı [5, v.11-12].

İngilislərin Bakını tərk etməsi şəhərin, ümumiyyətlə Azərbaycanın ictimai-siyasi həyatına elə də böyük təsir göstərmədi – həyat əvvəlki axarında davam edirdi. N.Usubbəyovun Sovet Rusiyasından gəlmiş "Возрождение" qəzetinin müxbirinə müsahibəsində dediyi kimi "müsəlman kütlələri ümumiyyətlə sülhsevər əhvali-ruhiyyədədirlər və onlar arasında aparılan nə bolşevik təbliğatı, nə də anarxist ideyaları uğur qazana bilməmişdir" [5, v.11-12].

Denikin Dağıstanı ələ keçirdikdən sonra burada yerli xalqların işğalçılara qarşı silahlı mübarizəsi başladı. Dağıstanlılar Dərbəndi denikinçilərdən azad etdikdən sonra bu şəhər Denikinə məxsus Xəzər donanmasının gəmilərindən artilleriya atəşinə tutulurdu. Dağıstanda baş verənlər Azərbaycan hökumətini narahat etməyə bilməzdi. Yaranmış vəziyyətlə bağlı Azərbaycanın xarici işlər naziri M.Cəfərov 1919-cu ilin sentyabrın 24-də Cənubi Qafqazdakı Müttəfiqlərin Ali komissarı V.N.Haskelə teleqram vurdu. Teleqramda xahiş olunurdu ki, Haskel müdaxilə edərək Dağıstanda qan tökülməsinin qarşısını alsın və Dağıstanla "Könülü Ordu" arasında müvəqqəti neytral zonanın yaradılması istiqamətində tədbirlər görsün [15, v.92].

1919-cu il sentyabrın 24-də Azərbaycanın Kuban və Don respublikalarındakı diplomatik nümayəndəsi Cəfər bəy Rüstəmbəyova, eyni zamanda Cənubi Rusiya Silahlı Qüvvələrində Azərbaycanın nümayəndəsi vəzifəsini də yerinə yetirmək həvalə olundu [1]. Eyni zamanda 1919-cu il 24 sentyabr tarixində Paşa bəy Sultanov Azərbaycan Respublikasının Rostov şəhərində konsul agenti təyin olundu [1].

1919-cu il sentyabrın 30-da Azərbaycanın xarici işlər naziri M.Cəfərov Cənubi Qafqazdakı Britaniya Ali Komissarı Oliver Uordropa məktub göndərdi və məktubda "Könüllü Ordu" Dağıstandan çıxarıldıqdan sonra Dağıstanın dövlət quruluşunun mümkün formaları haqqında Azərbaycan hökumətinin fikrini çatdırdı. Azərbaycan hökumətində belə düşünürdülər ki, Denikindən sonra Dağıstanın idarəçiliyi 3 formadan birində həyata keçirilə bilər:

1) Dağıstan vilayətinin idarəçiliyi müvəqqəti olaraq Azərbaycan Respublikası hökumətinə verilir və əvəzində Azərbaycan Denikin qoşunlarını arxadan qorumaq və buradan bolşeviklərin Dağıstana daxil olmasına yol verməmək öhdəliyini üzərinə götürür;

2) Müttəfiq dövlətlərin nəzarəti altında Dağıstanda yaşayan xalqlara öz hakimiyyətini təşkil etmək imkanı yaradılır;

3) Britaniya və ya Amerika general - qubernatorunun idarəçiliyi altında Dağıstanda xüsusi qeneral-qubernatorluğun yaradılması [12, v.65].

AXC-nin Kuban Xalq Respublikasındakı diplomatik nümayəndəsi C.Rüstəmbəyov Denikinlə görüşmək ümidilə 3 dəfə Taqanroqa gəlsə də, hər dəfə də Denikin cəbhədə olduğundan buna nail ola bilməmişdir. Sonuncu dəfə 1919-cu ilin oktyabrın ortalarında Taqanroqa gələn C.Rüstəmbəyov Denikini orada tapa bilsə də, Denikin səbəb göstərmədən onunla görüşdən imtina etmişdir. Denikinlə görüşə bilməyən C.Rüstəmbəyovu görüş üçün ingilis hərbi missiyasının rəisi general Holmen dəvət etmişdir. Bu görüşdə C.Rüstəmbəyov "Könüllü Ordu"nun Dağıstandan çıxarılması və Dağıstanda ingilis general-qubernatorluğunun yaradılması haqqında AXC hökumətinin təklifini Holmenə çatdırdı [3, v.17]. İngilislər bu təklifi öyrənmək üçün polkovnik Rolansonu Taqanroqdan Dağıstana göndərdilər. Rolanson Dağıstanda yerli vəziyyəti öyrəndikdən sonra hərbi missiyaya hesabat təqdim etdi. Hesabatda göstərilirdi ki, Dağıstandakı Denikinə qarşı xalq üsyanları əslində bolşevik xarakteri daşıyır və burada heç də milli ideyalar uğrunda mübarizə aparmırlar. Rolansonun

fikri əsir götürülmüş bir neçə dağıstanlı üsyançıdan tapılan sənədlərə əsaslanırdı. Bu sənədlərdən məlum olurdu ki, Dağıstan bolşevikləri Həştərxan bolşevikləri ilə sıx əlaqədə hərəkət edirlər. Bu faktlar ingilislərin Dağıstandakı xalq qiyamlarına mənfi münasibət göstərməsinə əsas yaratdı. İngilis rəsmiləri hesab edirdilər ki, Dağıstan Rusiyanın ayrılmaz hissəsidir, burada ali hakimiyyət general Denikinə məxsusdur və dağıstanlılar Rusiya tərkibində qalaraq, yalnız yerli özünüidarəetməyə iddia edə bilərlər. İngilislər AXC hökumətinin Dağıstanda general-qubernatorluq yaratmaq fikrini də dəstəkləmədilər və səbəb kimi burada ingilis hərbi quvvələrinin olmamasını göstərirdilər [3, v.17 arxası].

C.Rüstəmbəyov bəyan etmişdi ki, Azərbaycan Dağıstanın öz müqəddəratını təyinetmə hüququna hörmətlə yanaşır, onların vəziyyətinin yüngülləşməsi üçün bütün diplomatik addımlardan istifadə edəcəkdir. İngilislər hesab edirdilər ki, guya Dağıstandakı Denikinə qarşı üsyanlarda Azərbaycanın əli var. Təbii ki, Azərbaycan təbəələrindən bu üsyanlarda iştirak edənlər var idi, lakin onlara görə Azərbaycan hökuməti məsuliyyət daşımırdı. “Könüllü Ordu” rəhbərliyi iki məsələyə görə Azərbaycandan narazı idi: 1) guya ki, AXC Dağıstanda xalq qiyamlarını dəstəkləyir; 2) AXC Yalamada çoxsaylı qoşun kontingenti saxlayır və Denikin bunu özünə qarşı bir təhdid kimi dəyərləndirirdi. Əslində, AXC özünü müdafiə etmək məqsədilə öz ərazisinin istənilən yerində istədiyi sayda qoşun saxlaya bilərdi. Denikinin Yalamadakı Azərbaycan hərbi bölməsinin varlığından narahatlığı əslində onun Azərbaycana qarşı təcavüzkar niyyətlərindən xəbər verirdi. Denikinin sözlərinə görə “guya O, AXC – yə qarşı heç bir təcavüzkar addım atmağa hazırlaşmır və bu cür niyyəti də yoxdur” [3, v.17-19]. AXC-ni rəsmən tanımamasını belə izah edirdi ki, O, Rusiyanın müvəqqəti qəyyumudur, AXC-nin müstəqilliyinin tanınması məsələsi onun səlahiyyətində deyil və bu məsələ yalnız Rusiyada Vətəndaş müharibəsi bitdikdən sonra çağırılacaq Müəssislər Məclisində həll edilə bilər. Azərbaycan tərəfi məsələnin bu cür izahına belə cavab vermişdir ki, “Rusiya Müəssisələr Məclisinin Azərbaycanla bağlı qərarı bizim üçün mütləq deyil. Biz özümüzü yalnız Sülh konfransı qarşısında öhdəlikli sayırıq” [3, v.18].

Qeyd etmək lazımdır ki, ingilislər də Denikinin mövqeyini dəstəkləyirdilər. AXC hökuməti dəfələrlə bəyan etmişdi ki, general Denikin Rusiya Müəssisələr Məclisinədək AXC-nin müstəqilliyini tanıyarsa, onunla iqtisadi əməkdaşlığın aparılması mümkün ola bilər. Lakin AXC hökuməti qəti şəkildə Denikinin bolşeviklərə qarşı birgə mübarizə aparmaq təklifini və “Könüllü Ordu”ya hərbi yardım göstərilməsini rədd etmişdir. Çünki, AXC-nin rəsmi mövqeyi belə idi ki, Rusiyada Vətəndaş müharibəsi rus xalqının öz daxili işidir və Azərbaycan Rusiyanın daxili işlərinə qarışmır [3, v.17-19].

C.Rüstəmbəylinin verdiyi məlumata görə Denikinlə ermənilər arasında razılaşma əldə olunmuşdur və bu razılaşmaya görə əgər Azərbaycan “Könüllü Ordu” ilə savaşa girərsə, ermənilər Azərbaycana arxadan zərbə vurmalı idilər. Ancaq C.Rüstəmbəylinin şifahi əldə etdiyi bu faktı təsdiqləyən hər hansı bir rəsmi sənəd əldə olunmamışdır [3, v.19].

“Könüllü Ordu” Dağıstanı tutduqdan sonra ona qarşı burada dağlı xalqlarının mübarizəsi başladı. İlk olaraq inquşlar qalxdılar. Daha sonra çeçenlər və Dağıstanın dağ kəndlərinin əhalisi ayağa qalxdı. 1919-cu il oktyabrın sonlarında Petrovskla dəmir yolu əlaqəsi kəsildi Dərbənddə qərarlaşan “Könüllü Ordu” qarnizonu mühasirəyə alındı. Beləliklə, Dağıstanın və Çeçenistanın dağlıq ərazilərinin çox hissəsi denikinçilərdən təmizləndi.

Azərbaycan hökuməti Dağıstanda gedən silahlı mübarizəyə müdaxilə etməsə də, öz şimal sərhədləri boyunca bu cür qan tökülməsinə də biganə qala bilməzdi. Bu səbəbdən AXC hökuməti palkovnik Haskelə teleqramla müraciət edərək üsyançı dağlılarla “Könüllü Ordu”arasında neytral zonanın yaradılmasına kömək etməyi xahiş etdi [9, v.1-8].

İngilislər getməzdən öncə demarkasiya xəttini Samur çayı boyunca təyin etdilər. Bundan sonra denikinçilərin iştahası artdı və onlar ingilislərdən xahiş etdilər ki, Bakı limanında lövbər salan və Azərbaycan Xəzər Donanmasına aid olan silahlandırılmış gəmilərə nəzarət hüququnu da onlara versinlər. Lakin denikinçilərin bu xahişi ingilislər tərəfindən rədd edildi.

Azərbaycan Respublikası demarkasiya xəttinin yenilənməsinə etiraz etsə də, Britaniya hökuməti üçün Denikinlə yaxşı münasibətlər saxlamaq daha önəmli idi.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Газета «Азербайджан», 1919. 24 сентября, №204, с.2.*

*2. Директива товарища министра иностранных дел А. х. Зиатханова дипломатическому представителю Азербайджана в Горской Республике А. Ахвердову о необходимости пропаганды успехов Азербайджана в дипломатической и военной областях и ведения переговоров о временном вводе в Горскую Республику азербайджанских войск.16 июня 1919 г./ ГААР, ф.970, оп.1, д. 48, л. 57.*

*3. Доклад дипломатического представителя Азербайджана при правительстве Кубани Дж. Рустамбекова министру иностранных дел М.Ю.Джафарову о встрече с представителями британской военной миссии по вопросу взаимоотношений Азербайджана с Доброволь¬ческой армией. Екатеринодар. 22/10 октября 1919 г. // ГААР, Ф. 894, оп. 10,д. 112, л.17-19.*

*4. Докладная записка представителя азербайджанского правительства при союзном командовании А. Таирова председателю Совета Министров Н. Ю. Усуббекову об итогах поездки в Стамбул и Рим. 6 августа 1919 г. // ГАППОДАР, ф.277, оп.2, д. 22, л.103-105.*

*5. Интервью председателя Совета Министров Н.Ю. Усуббекова корреспонденту газ. "Возрождение"1 о результатах переговоров с представителем Главного командования ВСЮР при британском главном командовании в Закавказье генералом-от-кавалерии Н.Н.Баратовым. Тифлис 10 сентября 1919 г. // ГААР, ф.970, оп.1, д.144, л.11-12.*

*6. Нота председателя азербайджанской делегации на Парижской мирной конференции А. А. Топчибашева министру иностранных дел Велико-британии лорду Бальфуру об агрессивных действиях Добровольческой армии против Азербайджана. 10 сентября 1919 г. // ГААР, ф.970, оп.1, д.142, л.90-94.*

*7. Нота министра иностранных дел М. Ю. Джафарова командующему союзными войсками в Баку ген. Д. Шательворгу. 3 июля 1919 г./ ГААР, ф.970, оп.1, д. 48, л. 58.*

*8. Нота министра иностранных дел М.Ю.Джафарова командующему союзными войсками в Баку ген. Д.Шательворгу, 10 августа 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.29.*

*9. Обзор событий на Кавказе и внешней политики Азербайджанской Республики за август-октябрь 1919 г., направленный Министерством иностранных дел председателю азербайджанской делегации на Парижской мирной конференции А.А.Топчибашеву. 30 октября 1919 г. // ГААР, ф.970,оп.1, д.144, л. 1-8.*

*10. Обращение командующего союзными войсками в Баку ген. Д. Шательворга к жителям Азербайджана по случаю ухода войск. 22 августа 1919 г. // Газета «Азербайджан»,1919, 24 августа .*

*11. Отношение командующего союзными войсками в Баку ген. Д. Шательворга председателю Совета Министров Н. Ю. Усуббекову о несоответствии южной демаркационной линии декларации британского правительства.июль 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.15.*

*12. Письмо министра иностранных дел М.Ю.Джафарова верховному британскому комиссару в Закавказье О.Уордрону о возможных формах Государственного устройства в Дагестане после вывода Добровольческой армии. 30 сентября 1919 г. // ГААР, ф.894, оп.10, д.89, л.65.*

*13. Сообщение командующего британскими силами в Закавказье генерал-майора Г.Н.Кори председателю Совета Министров Н. Ю. Усуббекову об установлении демаркационной линии между территорией, занятой Добровольческой армией, и республиками Кавказа. 11 июня 1919 г. / Азербайджанская Демократическая Республика. Внешняя политика. (Документы и материалы) — Баку, издательство "Азербайджан" 1998, с.226.*

*14. Телеграмма министра иностранных дел Республики Грузия Е. П. Гегечкори министру иностранных дел М. Ю .Джафарову о совместной борьбе за восстановление старой демаркационной линии между территорией, занятой ВСЮР, и закавказскими республиками.Тифлис 10 августа 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.28*

*15. Телеграмма министра иностранных дел М.Ю.Джафарова союзному верховному комиссару в Закавказье полк. В. Н. Гаскелю о необходимости приостановления кровопролития в Дагестане и установления нейтральной зоны между Азербайджаном и территорией, занимаемой Добровольческой армией.24 сентября 1919 г. // ГААР, ф.894, оп.10, д.112, л.92.*

16. *Уведомление представителя Главного командования ВСЮР при британском Главном командовании в Закавказье генерала-от-кавалерии Н. Н. Баратова председателю Совета Министров Н. Ю. Усуббекову о своих дипломатических полномочиях, Тифлис 6 августа 1919 г. // ГААР, ф.894, оп.10, д.86, л.26.*

**XÜLASƏ**

1919-cu ilin mayında Denikin qoşunları Dağıstanı ələ keçirdilər.Bu hadisə Azərbaycan respublikasında narahatlıq yaratdı.Əsas təhlükə Denikin qoşunlarının Azərbaycanın sərhədlərinə yaxınlaşması idi.

Böyük Briyaniya hökuməti bu məsələnin həlli üçün demarkasiya xətti təyin etdi.Bu xəttə görə Azərbaycanla Denikin qoşunları arasında sərhəd Maxaçkala şəhərindən 5 kilometr cənubdan keçirdi.Lakin general Denikin bu şərtlərə əməl etmədi və Dərbəndə qədər Dağıstan ərazilərini ələ keçirdi.Bu Azərbaycan respublikasının etirazına səbəb oldu. Böyük Britaniya hökuməti 1919-cu ilin avqustunda ikinci dəfə demarkasiya xəttini müəyyən etdi.Bu dəfə demarkasiya xətti köhnə Bakı quberniyası ilə Dağıstan vilayəti arasındakı sərhəd üzrə keçirdi.

Azərbaycan respublikası demarkasiya xəttinin yenilənməsinə etiraz etdi.Ancaq Britaniya hökuməti üçün Denikinlə yaxşı münasibətlər saxlamaq daha önəmli idi.

**Açar sözlər:** *Cənubi Qafqaz, Dağlı Respublikası, Azərbaycan Xalq Cümhuriyyəti, Böyük Britaniya, "Könüllü Ordu".*

**Hasanova Leyla Nizami gizi**
***PhD student in History of International Relations at the Institute of History and Ethnology named after Abbasgulu Agha Bakikhanov of ANAS***

**Determination of the demarcation line between the Azerbaijan Democratic Republic and Dagestan and the position of Great Britain on this issue**

**ABSTRACT**

In May 1919, Denikin's troops captured Dagestan. This event caused concern in the Azerbaijan Republic. The main threat was the approach of Denikin's troops to the borders of Azerbaijan.

The British government set a demarcation line to resolve this issue. According to this line, the border between Azerbaijan and Denikin's troops passed 5 kilometers south of the city of Makhachkala. However, General Denikin did not comply with these conditions and captured the territories of Dagestan up to Derbent. This caused protests from the Azerbaijani Republic. The British government set a demarcation line for the second time in August 1919. This time, the demarcation line passed along the border between the old Baku governorate and the Dagestan province.

The Azerbaijani Republic objected to the renewal of the demarcation line. However, it was more important for the British government to maintain good relations with Denikin.

**Keywords:** *South Caucasus, Mountainous Republic, Azerbaijan Democratic Republic, Great Britain, "Volunteer Army".*